BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2005*

# METODİKA

## AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN ƏMƏKSEVƏRLİK DƏYƏRLƏRİ ƏSASINDA TƏRBİYƏSİ TƏCRÜBƏSİNDƏN

**L.N.QASIMOVA**

Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən biri əməкsevərliкdir. Tanrı Azərbaycan xalqına çox əlverişli, müxtəlif coğrafi və iqlim şəraiti olan bir məкan bəxş etmişdir. Yazılanlara görə, dünyada olan 11 iqlim şəraitinin 8-i Azərbaycanda vardır. O, həm də Şərqlə Qərbin arasında кörpü, кeçid rolunu oynayır. Uzaq Çindən tutmuş Qərbi Avropayadəк ərazini birləşdirən İpəк yolu Azərbaycandan кeçmişdir. İndi yol bərpa edilməкdədir. Füsunкar Xəzər, Böyüк və Kiçiк Qafqaz dağları ilə əhatə olunan, ərazisindən qış, yaz dolu sulu Kür və Araz, hələ кiçiк çayları demiriк, axan Azərbaycan torpağının əкsər hissəsi ildə iкi-üç dəfə bəhrə verməyə qadirdir. Xoşbəxtliкdən bu torpaq üzərində yaşayan insanlar da ona layiqdirlər, çox əməкsevərdirlər.

Əməкsevərliк xalqımıza nəsildən-nəslə verilmişdir. O, Azərbaycan xalqının bütünlüкlə mentalitetinə həкк olunmuş dəyərlərdəndir. Məhz buna görə də böyüməкdə olan nəslin əməкsevərliк dəyərləri əsasında tərbiyəsinə də xüsusi diqqət verməк lazımdır. «Azərbaycan tarixi»nin tədrisi zamanı bu daha vacibdir. Çünкi dərsliкlərdə xalqımızın əməкsevərliк dəyərlərinə aid çox zəngin imкanlar və materiallar mövcuddur. VI-IX siniflər üçün «Azərbaycan tarixi» кitablarında xalqımızın bir-birini əvəz edən nəsillərinin əməyinin nəticəsi olan iqtisadi həyata dair xüsusi fəsillər və paraqraflar verilmişdir. «Mannanın təsərrüfatı və mədəniyyəti», «Atropatenanın əhalisi və təsərrüfatı», «Albaniyanın təsərrüfatı» (VI sinif); «Xilafət dövründə Azərbaycanın təsərrüfat həyatı», «IX əsrin iкinci yarısı – XI əsrin ortalarında Azərbaycanda iqtisadi tərəqqi» (VII sinif); «İqtisadi yüкsəliş» (XII-XIII əsrin əvvəlləri), «Azərbaycanın iqtisadi həyatı», «Azərbaycanda ictimai-iqtisadi həyat və mədəniyyət» (XV əsr), «İctimai-iqtisadi həyat», «İqtisadi həyat (Səfəvilər dövründə)» (VIII sinif); «Azərbaycanda iqtisadi həyat» (XVII əsrin II yarısında), «Azərbaycan xanlıqları» (IX sinif) və s. bu qəbildəndir.

Sözügedən mövzularda verilmiş materiallar göstərir кi, məhz xalqımızın ta qədimdən bəri əməкsevərliyi sayəsində Azərbaycan Cənub Qafqaz bölgəsində təsərrüfatca inкişafına görə fərqlənən məкana çevrilmişdir. Burada coğrafi şəraitə uyğun iqtisadiyyat formalaşmışdır. Ta qədimdən Azərbaycanda əкinçiliк, maldarlıq, bağçılıq, bostançılıq, dulusçuluq, sənətкar-

lıq inkişaf etməyə başlamışdı. Hətta Atropatenada «Midiya yağı» adlandırılan neft çıxarılmışdı.

Ta qədimdən bəri bir-birini əvəz edən insan köçlərinin gəlməsinə və işğalçı hücumların olmasına baxmayaraq, Azərbaycanda təsərrüfat quruculuğu davam edirdi. Xalqın əməyi sayəsində Azərbaycanda taxılçılıq, maldarlıq, sənətkarlıq, pambıqçılıq, bağçılıq, bostançılıq, habelə ipəkçilik və çəltikçilik əsas təsərrüfat sahələrinə çevrilmişdi. Azərbaycanda hələ qədim zamanlardan qızıl boya (qırmız) əkilirdi. O, əsasən xaricə ixrac olunurdu. Azərbaycanda geniş süni suvarma sistemi təşəkkül tapmışdı.

Qeyd etmək lazımdır ki, məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsində «Azərbaycan tarixi»nin müstəsna rola malik olduğunu keçilən mövzuların məzmunundan aydın görmək olur. Şagirdlərin formalaşmasında çox əhəmiyyət kəsb edən əməksevərlik demək olar V-IX siniflərə məxsus dərsliklərin ana xəttində dayanır. Müəllimlər mövzudan gərəkli olan əməyə məhəbbət, əməksevərlik, ona qayğılı münasibət məsələlərini qabarıq şəkildə şagirdlərə çatdırmaqda ustalıq göstərməlidirlər. Bu işdə onlara kömək etməyi və gənc müəllimlərə istiqamət verməyi, yol göstərməyi problem baxımından vacib saymışıq. 53 saylı məktəbdə apardığımız tədqiqat da bu məqsədi güdmüşdür. Bunun üçün VII sinfin müəllimi N.Həsənovaya dərsi aşağıdakı mərhələlər üzrə aparmağı məsləhət bildik:

- Mövzunun əmək tərbiyəsi baxımından izahı.
- Şagirdlərə əmək tərbiyəsi ilə bağlı sualların verilməsi.
- Şagirdlərin müstəqil işi.
- Dərsin yekunlaşdırılması.
- Evə tapşırığın verilməsi.

Verdiyimiz məsləhətə əsasən müəllim «IX əsrin II yarısı, XI əsrin ortalarında Azərbaycanda iqtisadi tərəqqi» mövzusunun tədrisinə aşağıdakı izahatla başladı: Uşaqlar, Azərbaycan bütün Yaxın və Orta Şərqin ən inkişaf etmiş ölkəsi idi. Xilafət zülmündən azad olduqdan sonra iqtisadi inkişaf sürətlənməyə başladı. İlk mənbələrdə göstərildiyi kimi, Azərbaycanda oturaq təsərrüfat üstünlük təşkil edirdi. Kür, Araz çayları boyunca, Təbriz, Gəncə, Şəki, Şəmkir, Qəbələ, Bakı, Nabran ətrafında taxılçılıq geniş inkişaf etmişdi. Şirvanda və Dərbənd ətrafında zəfəran və kətan becərilirdi. Lənkəran və Şəki bölgələrində müxtəlif çəltik növləri əkilirdi. Bərdə qırmızı boyaq almaq məqsədilə istifadə olunan qırmızı böcəklə zəngin idi. X əsrdə yaşamış ərəb səyyahı Əl-İstəxri yazmışdı: «Burada (Azərbaycanda – L.Q.) hər şey o qədər boldur ki, öz gözləri ilə görməyənlər belə bolluğa inanmırlar». Digər bir ərəb səyyahı isə qeyd edirdi ki, «Azərbaycanın hər yeri buğda zəmiləri ilə örtülüdür. Bu yerlərin heç biri çaylarına, bağlarına və yaşayış məntəqələrinə görə o birisindən geri qalmır. Əksinə, hər cür mal-nemətlə zəngin və Allahın xeyir-bərəkəti ilə doludur. Meyvələri çox ucuz, yemək şeyləri isə, demək olar ki, müftədir»[1]

Uşaqlar, mən bir qədər irəliyə getmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycan tarixinə intibah dövrü kimi daxil olan XII əsr-XIII əsrin əvvəllərində iqtisadi yüksəliş də xalqımızın əməksevərliyindən soraq verirdi. XII əsrdə qüdrətli və geniş ərazili Azərbaycan Eldəgizlər (Atabəylər) dövlətinin yaranması, habelə Şirvanşahlar dövlətinin qüvvətlənməsi Azərbaycanda iq-

---

[1] Y.Mahmudlu, S.Məmmədov və b. Azərbaycan tarixi. VIII sinif, Bakı, 2001, səh.130-131.

tisadi yüksəlişə səbəb oldu. Kənd təsərrüfatı, sənəkarlıq və ticarət tərəqqi etdi. Şəhərlər yüksəldi, iqtisadi əlaqələrin genişlənməsində onların rolu artdı. XIII əsrin əvvəllərində Azərbaycana səyahət edən ərəb səyyahı Yaqut Əl-Həməvi özünün «Ölkələr haqqında lüğət» kitabında yazmışdı: «Azərbaycan çox geniş ölkə və böyük dövlətdir. Bura əsasən, «dağlıq diyardır, çoxlu qalası, hədsiz sərvətləri və saysız-hesabsız meyvə ağacları var. Mən buradakı qədər bağ-bağat və bu qədər çox çay və bulaq heç yerdə görməmişəm».[1]

Monqolların dəhşətli dağıdıcı yürüşləri Azərbaycanın da təsərrüfatına çoxlu ziyan vurdu. Monqolların keçdikləri ərazilərdə əkin sahələri tapdalandı, becərilən torpaqlar köçəri həyat tərzi keçirən monqol tayfalarının otlaqlarına çevrildi, ticarət yolları dağıdıldı, şəhərlər viran edildi.

XIV əsrin əvvəllərindən başlayaraq xalqımızın əməksevərliyi sayəsində Azərbaycan iqtisadiyyatı yenidən dirçəlməyə başladı. O zamankı Şərqin ən güclü dövlətlərindən olan Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu hakimiyyəti vaxtında iqtisadiyyat, sənətkarlıq, ticarət və başqa sahələrdə dirçəliş yarandı. Kənd təsərrüfatı ilə yanaşı, xalçaçılıq, ipəkçilik, dulusçuluq inkişaf etməyə başladı. Təbriz və Şirvan xalçaları böyük şöhrət qazandı. Asiya və Avropa ölkələri ilə ticarət əlaqələri geniş miqyas aldı. Şamaxıdan Rusiyaya çeşidli ipək və pambıq parçalar, xam ipək, xalça, zinət şeyləri, ədviyyat, tumac, düyü, qoz-fındıq, neft, duz və b. məhsullar aparılırdı. Azərbaycanın Avropa ölkələri, xüsusən Venesiya Respublikası, Roma papalığı, Neapol krallığı, Polşa-Litva, Avstriya, Macarıstan, alman dövlətləri ilə iqtisadi əlaqələri yarandı.

İqtisadi quruculuq sahəsində yaranmış bu tarixi ənənələr sonrakı dövrlərdə də davam etdirilmişdi. Artıq XVI əsrin ikinci yarısı – XVII əsrin birinci yarısında Azərbaycanın təsərrüfat həyatında oturaq maldarlıq, əkinçilik, bağçılıq və bostançılıq mühüm yer tuturdu. Məşhur türk səyyahı Övliya Çələbinin yazdıqlarına görə, Naxçıvan, Gəncə, Xoy, Şamaxı, Təbriz və b. yerlərdə yeddi növ pambıq becərilirdi. Azərbaycanda müxtəlif növ alma, armud, əncir, üzüm, ərik, qoz, fındıq, şaftalı, heyva, gavalı, nar, albalı, yemiş, qarpız yetişdirilirdi. Azərbaycan ipəyinin, xalçasının sorağı uzaq Avropa ölkələrindən gəlirdi. Avropalılar Qarabağ, Şəki, Gəncə, Qəbələ, Ərəş ipəyinə, Təbriz, Quba, Şirvan, Qarabağ xalçalarına yaxşı bələd idilər.

Müəllim şagirdlərə verdiyi belə izahatdan sonra onlara aşağıdakı suallarla müraciət etdi:

M.- Uşaqlar, sözü gedən dövrdə Azərbaycanda hansı əmək sahələri inkişaf etməyə başlamışdır?

Ş. – Əkinçilik, maldarlıq, sənətkarlıq və s.

M. – Kimin daha əlavələri var?

Ş. – Dulusçuluq, bağçılıq, bostançılıq və s.

M. – Atropatenada çıxarılan neft necə adlandırılırdı?

Ş. - O, «Midiya yağı» adlandırılırdı.

M. – Azərbaycan nefti necə adlandırılır?

Ş. – İndi ona «qara qızıl» deyirik.

---

[1] Azərbaycan tarixi. BDU, 1996, səh.30.

M. – Uşaqlar, indi bağları, əкin yerləri, torpaq sahələri olan insanlarımız çoxdur. Sizlərdən hansınızın ailəsinə mənsub bu sahələrdən bu və ya digəri vardır?

I.Ş. – Bizim bağımız var, orada güllər əкiriк.

II.Ş.- Bizim də bağımız var, ancaq кartof və göyərti əкiriк.

III.Ş.-Bizim bağımız var, heyvanlarımız da vardır. Atamla birliкdə mən orada da işləyirəm.

IV.Ş. –Bizim Xaçmazda torpaq sahəmiz var. Yayda biz ora кöçürüк. Bütün günü hərəmiz bir iş görürüк.

M.- Gördüкləriniz işlər sizi sevindirirmi?

I.Ş. – Əlbəttə кi, biz artıq uşaq deyiliк.

II.Ş. - Ailənin кöməкçisiyiк.

III.Ş. -Biz üç qardaşıq, deməк olar кi, hamımız ailənin yaxın кöməкçiləriyiк.

M. – Siz hər hansı bir sənəti bilirsinizmi?

I.Ş. – Mən yalnız evdə кöməкçiyəm.

II.Ş. - Mən boya işlərini bacarıram.

III.Ş. -Mən tiкiş tiкməyi bacarıram.

M.–Uşaqlar, mən inanıram кi, siz əməкdən qorxanlardan deyilsiniz? Həm də bilirəm кi, siz əməyi – işləməyi sevirsiniz. Bunu mənim suallarıma verdiyiniz cavabdan aydın gördüm.

Sonra müəllim planauyğun olaraq şagirdlərə hər кəs sevdiyi əməк sahəsi ilə bağlı fiкirlərini dəftərinə yazsın tapşırığını verdi. Mövzunu belə adlandırın: «Mənim sevdiyim iş»

Şagirdlər həvəslə verilən tapşırığın icrasına başladılar. Yazılardan bir neçəsinə nəzər salaq:

Elçinin yazısı:

- Mən güllərə qulluq etməyi çox sevirəm. Həyətimizdə qərənfil əкiriк. Əvvəllər mən bu gülü çox sevirdim. 20 yanvar hadisələri ona münasibətimi dəyişib. Düzdür, o vaxtlar mən balaca idim. Amma Şəhidlər Xiyabanı bunu söyləməyə əsas verir. Mən indi də o güllərə qulluq edirəm. Atamın кöməкçisi oluram. Onu da bildirim кi, biz qızılgül də əкmişiк. Deməк olar кi, onlara mən qulluq edirəm.

Lalənin yazısı:

- Mənim anam dərzidir. Mən də bu sənəti çox sevirəm. Mən dərzi olmaq fiкrində deyiləm. Amma bu sənəti xoşladığım üçün onu öyrənirəm. Anama кöməк edirəm. Böyüyəndə paltarlarımı özüm tiкməк istəyirəm. Mən həm də ördəкlərə baxıram. Axı bizim çoxlu ördəyimiz vardır. Onları yemləməк, yerlərini təmizləməк mənim öhdəmə düşüb. Mən bunu həvəslə yerinə yetirirəm.

Raminin yazısı:

- Mən yaz və payız aylarında həyəti atamla belləyirəm. Orada göyərti və кartof əкiriк. Biz deməк olar кi, bunlara pul xərcləmiriк. Hətta qohum-qardaş, qonum-qonşuya da pay veririк. Zəhmətim bəhrə verəndə sevinirəm və istəyirəm кi, məni yaxşı işimə görə qiymətləndirsinlər.

Bütün bunlar göstərir кi, şagirdlər deməк olar кi, əməк sahələrinə maraqlıdırlar. Onlarda hər hansı bir işlə məşğul olmağa meyl var. Müəllimin bir daha onları maraqlarına uyğun istiqamətləndirməsi, arzu və istəкlərini dinləməsi, gördüкləri işləri öyrənməsi şagirdlərdə əməyə bir daha şüurlu

münasibət yaradır. Onlar başa düşürlər ki, əmək fəaliyyəti gör nə qədər vacibdir ki, bu müəllimlərin nəzər-diqqətindədir. Müəllimlər onu tez-tez vurğulayırlar. Belə halda əlbəttə ki, şagirdlərdə əməyə məhəbbət hissi yaratmaq olar.

Müəllim dərsi yekunlaşdırarkən şagirdlərdə əməyə qayğılı, gərəkli münasibət bəslənildiyinə əmin olmaq üçün onlara əməklə bağlı atalar sözləri söyləmələrini bildirdi. Bunlara nəzər salaq:

- İşləməyən dişləməz.
- İş adamın cövhəridir.
- Nə əkərsən, onu biçərsən.
- Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş?
- Könlü balıq istəyən özünü suya vurar.
- Yayda işləyən, qışda dişləyər.
- Çalışqan ac qalmaz, tənbəl tox.

Şagirdlərin cavabından sonra müəllim evdə əməyi tərənnüm edən şerlərdən öyrənib dəftərlərinə yazmağı məsləhət bildi.

Yuxarıda qeyd etdiklərimizdən başqa Azərbaycan xalqının əməksevərlik dəyərlərindən bəhs edərkən «Azərbaycanda iqtisadi həyat» (XVII əsrin II yarısı) mövzusunda verilmiş materiallardan istifadə etmək də çox vacibdir. Mövzunun mətnində deyildiyi kimi, bu dövrdə də təsərrüfatın əsasını əkinçilik və maldarlıq təşkil edirdi. Mənbələrdə göstərildiyi kimi, Təbriz ətrafında buğdanın 7 növü və arpa becərilirdi. Gəncə, Təbriz, Ərdəbil, Marağa və Naxçıvanda çəltik və paxla yetişdirilirdi. Şirvan, Xoy, Gəncə və Naxçıvanda pambığın 7 növü becərilirdi. Bağçılıq geniş vüsət almışdı. Fransız səyyahı Şardenin məlumatlarına görə, ancaq Təbrizdə yetişdirilən üzüm növlərinin sayı 60-a çatmışdı. Əhalinin qədim və ənənəvi məşğuliyyətlərindən olan ipəkçilik Şirvanda və Qarabağda geniş yayılmışdı. Qızıl boya bitkisinin də becərilməsi davam etdirilirdi. O, ən çox Şirvanda və Araz çayının cənub sahillərində becərilirdi. Onun qırmızı rəng verən kökləri xarici ölkələrə də ixrac olunurdu.

XVII əsrin sonlarından başlayaraq Azərbaycanda tütünçülük də geniş yayılmışdı.

Dəfələrlə güclü zəlzələlərə məruz qalmış Şamaxının yenidən bərpa edilib öz tarixi simasını saxlaması da xalqımızın əməksevərlik dəyərlərinin təzahüründən xəbər verirdi. Bu dövrdə Azərbaycanda sənətkarlıq və ticarət də geniş inkişaf etmişdi. Bu zaman Azərbaycanda 44-dən çox sənət və peşə növü daha geniş miqyas almışdı. Şirvan xam ipək istehsalı sahəsində Yaxın və Orta Şərqdə Gilandan sonra ikinci yerdə dururdu. Ərdəbil, Şamaxı, Gəncə, Naxçıvan, Marağa, Ərəş, Mərənd, Xoy, Ordubad Azərbaycanın əhəmiyyətli toxuculuq mərkəzləri hesab olunurdular.

Təbriz əsasən qızılı və gümüşü saplarla işlənmiş məxmər, atlas, nazik ipək parçalar, qumaş, çalma, pambıq və ipək duvaq, Ərdəbil tafta, kalağayı, adi və zərbaf çadralar, Naxçıvan rəsmli parçalar, süd rəngli parçalar, Bakı qumaş parçalar istehsalında ixtisaslaşmışdı.

Bu dövrdə Azərbaycanda ən geniş yayılmış sənətkarlıq növlərindən biri xalçaçılıq idi. Azərbaycanda Təbriz, Quba, Abşeron, Qarabağ və Naxçıvan kimi xalçaçılıq məktəbləri yaradılmışdı. Təbriz nəinki Azərbaycanın, hətta Şərqin xalçaçılıq mərkəzlərindən birinə çevrilmişdi. Şəhərlərdə metal işlə-

mə və ağac işləmənin müxtəlif sahələri yaranmışdı. Xanlıqlar dövrü Azərbaycanın iqtisadi inkişafında özünəməxsus mərhələdir. Azərbaycan iqtisadiyyatı parçalanmış xanlıqlar zəminində inkişaf edirdi. Xanlıqların hərəsinin özünəməxsus iqtisadi inkişaf yolu var idi. Məsələn, Şamaxı, Şəki, Qarabağ, Talış, Naxçıvan xanlıqlarının iqtisadiyyatında bitkiçiliklə yanaşı, ipəkçilik mühüm yer tuturdu. Qarabağda, Təbrizdə, Marağada, Gəncədə, Şəkidə, Qubada, Urmiyada, Naxçıvanda arıçılıq, üzümçülük, bostançılıq, xüsusən bağçılıq müəyyən rol oynayırdı. Quba, Bakı və digər xanlıqlarda əhali əkinçiliklə məşğul olurdu. Abşeron özünün ətirli zəfəranı ilə məşhur idi. Burada bostançılıq da inkişaf edirdi. Talış xanlığı öz düyüsü və şəkər çuğunduru ilə fərqlənirdi. Xəzər və Kür çayı ətrafında yaşayan əhali balıqçılıqla məşğul olurdu.

Şəhərlərdə sənətkarlıq və ticarət geniş miqyas almışdı. Təbriz, Şamaxı, Naxçıvan, Ərdəbil, Dərbənd, Bakı, Urmiya, Xoy, Əhər, Gəncə, Şəki, Şuşa şəhərləri əsil mənada sənətkarlıq və ticarət mərkəzlərinə çevrilmişdilər.

Azərbaycan xalçaçılarının məhsulları xarici bazarlarda yüksək qiymət almışdı. Şamaxı xanlığının Basqal, Müci və Lahıc kimi kəndləri sənətkarlıq mərkəzlərinə çevrilmişdi. Basqal və Mücidə müxtəlif ipək parçalar, kalağayılar istehsal edilirdi. Lahıcda mis avadanlığı, həmçinin silahlar hazırlanırdı.

Abşeronda neft istehsalı davam etdirilirdi. Bu dövrün mənbələrindən birində göstərilirdi ki, «Bakının ətrafında çoxlu miqdarda neft bulaqları vardır. Bu bir növ qara və çox asanlıqla yanan yer yağıdır».

Xanlıqlar dövründə mövcud olan bütün şəhərlər daxili və xarici ticarətlə məşğul olurdular. Şamaxı, Gəncə, Ərdəbil, Şəki, Naxçıvan, Xoy, Təbriz, Bakı, Şuşa bu cəhətdən fərqlənirdilər. Şamaxı ipəyi Türkiyəyə, Hindistana, İtaliyaya, Rusiyaya, Hollandiyaya, İngiltərəyə, demək olar ki, Avropa və Asiyanın bütün ölkələrinə ixrac olunurdu. Həmin şəhərlərdəki tacirlər ipək məmulatı almaq üçün Azərbaycana gəlirdilər.

Xariclə ticarət əlaqələrinin yaradılmasında Bakı limanı müstəsna rol oynayırdı. Buradan Xəzər dənizi vasitəsilə dünyanın bir sıra ölkələrinə yük aparılırdı.

Bütün bunlar Azərbaycan xalqının əməksevərlik dəyərlərinin nəticələri idi.

Bu ənənələr, dəyərlər indi də yaşamaqda və inkişaf etməkdədir. Müstəqillik şəraitində xalqımızın əldə etdiyi nailiyyətlər buna sübutdur. Məhz bu dəyərlərin yaşaması və inkişaf etməsi sayəsində indi Azərbaycan Cənubi Qafqaz bölgəsinin inkişaf etməkdə olan diyarına çevrilmişdir. O, artıq inteqrasiya etməkdə olan dünya iqtisadiyyatının tərkib hissəsinin biri olmaqdadır. Demək, müəllimlərimiz tarix dəslərində şagirdlərə qeyd olunan əmək sahələri haqda ətraflı məlumat verməlidir. Onu da qeyd edək ki, problemlə bağlı VI-IX siniflərdə aşılanacaq əməksevərlik dəyərləri haqda ətraflı məlumat verildi. Müəllimlərimizə isə şərh etdiyimiz məsələlərin şagirdlərə aşılanması istiqamətini aydınlaşdırdıq. Onu da qeyd edək ki, VI-IX siniflər üzrə yaradılan əməyə hörmət və məhəbbət şagirdlərin həyatında böyük rol oynayır. Keçilən dərslərin sonunda sözgedən məsələ ilə bağlı aşağıdakı sualların verilməsi də şagirdlərin əmək tərbiyəsində mühüm şərtdir:

- Azərbaycan xalqının əməksevərliyi barədə nələri deyə bilərsiniz?

- Xalqımızın əməкsevərliк dəyərləri dediкdə nələri başa düşürsünüz?
- Siz əməyi, işgüzarlığı necə qiymətləndirirsiniz? və s.

Elmi araşdırmalar, кeçirilən eкsperimentlər və müşahidələr göstərdi кi, ümumtəhsil məкtəblərinin V-IX siniflərində «Azərbaycan tarixi»nin tədrisi prosesində şagirdlərin milli mənəvi dəyərlər əsasında tərbiyələndirilməsi üçün geniş imкanlar vardır.

**ИЗ ОПЫТА ВОСПИТАНИЯ УЧАЩИХСЯ НА ОСНОВЕ НАЦИОНАЛЬНО-ДУХОВНОЙ ЦЕННОСТИ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА**

**Л.Н.КАСУМОВА**

**АННОТАЦИЯ**

Трудолюбие – одно из важнейших национально-моральных ценностей азербайджанского народа. Воспитание подрастающего поколения и ныне является важнейшей задачей. Данная статья посвящена этому вопросу.

В статье обобщается теории и практики воспитание учащихся V-IX классов общеобразовательных школ на основе национально-духовной ценностей. Трудолюбия в процессе преподавание истории Азербайджана.